

# Çörək bol olarsa...

***Dünyanın nizamını pozan müharibələr, bütün bəşəriyyəti cənginə alan koronavirus pandemiyası, bəzi inkişaf etməmiş ölkələrdə özünü kəskin şəkildə büruzə verən ərzaq qıtlığı, əmtəə birjalarında qiymətlərin durmadan artması, iqtisadiyyatı çökdürən inflyasiya və digər təhlükə yaradan amillər kasıb dövlətlərin başı üzərindən Domokl qılıncı kimi asıldığını hər kəs aydın görür. Əlbəttə, bu təhlükələrin bəzisi Azərbaycandan da yan keçməyib, çünki biz də dünyanın bir parçasıyıq. Buna baxmayaraq, mübaliğəsiz demək olar ki, bütün bölgələrdə davamlı inkişafı təmin edən Dövlət proqramlarının həyata keçirilməsi, aqrar sahənin dirçəldilməsinə dövlət dəstəyinin göstərilməsi, qeyri-neft sahələrinə aid iri layihələrin uğurla tətbiq edilməsi, sənaye parklarının yaradılması ölkəmizi bütün bu təhlükələrdən sığortalayır. Qətiyyətlə demək olar ki, Azərbaycanda əhalinin etibarlı ərzaq təminatı dövlətin iqtisadi siyasətinin başlıca istiqamətlərindən biridir. Ən əvvəl isə kənd təsərrüfatının əsasını təşkil edən taxılçılıq bu sahədə mühüm əhəmiyyət kəsb edir.***

Ölkəmizdə taxılçılığın inkişafı ilk növbədə əhalinin ərzaq təhlükəsizliyinin tam yerli istehsal hesabına təmin edilməsi baxımından böyük önəm daşıyır. Qeyd etmək yerinə düşər ki, son illərdə ölkəmizdə ərzaq təminatının daxili istehsal hesabına təmin olunması istiqamətində davamlı tədbirlər həyata keçirilir. Prezident İlham Əliyevin respublikada kənd təsərrüfatının və sahibkarlığın inkişafı, yerli istehsalın artırılması, idxaldan asılılığın azaldılması, əhalinin məşğulluğunun yüksəldilməsi, torpaq sahələrindən səmərəli istifadə olunması barədə tapşırıqları Ağcabədi rayonunda da uğurla icra olunur.

Dövlətimizin başçısı İlham Əliyevin 2022-ci il iyulun 19-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanı ərzaq təhlükəsizliyinin təmin edilməsi, o cümlədən əsas ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə güclü təkan verəcək. Mühüm dövlət sənədində qeyd olunur ki, ölkəmizdə kənd təsərrüfatının inkişafı sahəsində formalaşmış potensial, xüsusilə müasir texnologiyaların tətbiqinə əsaslanmaqla taxılçılıq təsərrüfatlarının yaradılması, həmçinin uzun illər ərzində işğal altında qalan torpaqların azad olunması ölkənin ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsini daha da yüksəldəcək.



Ağcabədi ölkəmizin əsas taxılçılıq rayonlarından biridir və rayonda son illərdə ənənəvi təsərrüfat sahəsi olan taxılçılığın intensiv inkişaf etdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir. İri fermer təsərrüfatları yaradılmasında və aqrar sahədə tətbiq olunan müasir metodlar ölkənin kənd təsərrüfatı məhsullarına tələbatının ödənilməsində və ərzaq təhlükəsizliyinin təmin olunmasında Ağcabədinin də payı var. Təsadüfi deyil ki, Ağcabədi respublikamızın 100 min tondan çox taxıl istehsal edilən rayonları sırasındadır. Rayon taxılçıları bu il də yüksək məhsuldarlığa nail olublar. Rayon Statistika İdarəsindən verilən məlumata görə, zəmilərdən 113 min 814 ton məhsul, o cümlədən 80 min 701 ton buğda, 33 min 113 ton arpa tədarük edilib. Hər hektarın məhsuldarlığı orta hesabla 40,4 sentner, o cümlədən buğda istehsalında 41,1, arpada isə 38,8 sentnerdir.

Respublikamızın taxıl məhsulları ilə təminatında özəl iri taxılçılıq təsərrüfatlarının rolu böyükdür. Ağcabədi Dövlət Aqrar İnkişaf Mərkəzindən bildirilib ki, rayonda "Ağcabədi taxıl Aqropark", "Əkinçi-BO" fermer təsərrüfatı, "MKT İstehsalat Kommersiya" MMC-nin innovasiya filialı, "Qarabağ Taxıl" MMC kimi müasir təsərrüfatlar fəaliyyət göstərir. Əkinçilər yaxşı bilir ki, bərəkətli torpaqlar, müasir texnologiyalar və suvarma bol məhsul əldə etməyin açarıdır. Təsadüfi deyil ki, adıçəkilən təsərrüfatlarda müasir suvarma sistemlərindən, o cümlədən pivotaltı suvarmadan istifadə etməklə yüksək məhsul əldə edilir. Mütəxəssislərin fikrincə, müasir suvarma sistemləri qurulan sahələrdə suvarma suyuna qənaət olunur ki, bu da daha çox əkin sahələrinin suvarma suyuna olan tələbatının ödənilməsi deməkdir. Müasir suvarma üsullarının tətbiq edildiyi sahələrdə suvarma normalarına ciddi əməl olunması nəticəsində torpaqdan qida maddələrinin yuyulmasının qarşısı alınır, torpağın münbitliyi əhəmiyyətli dərəcədə artır və torpaq təkrarən şorlaşmaya məruz qalmır. Təbii ki, iri təsərrüfatlarda yüksək məhsuldarlığa nail olunur və bu da idxaldan asılılığın aradan qaldırılmasına, daxili bazarın keyfiyyətli məhsullarla təmin edilməsinə və ərzaq təhlükəsizliyinin gücləndirilməsinə xidmət edir.

Heç kəsə sirr deyil ki, taxıl istehsalının artırılmasında xəstəliyə davamlı və məhsuldar toxumlar böyük əhəmiyyət daşıyır. Ölkəmizdə toxumçuluğun inkişaf etdirilməsi məqsədilə hazırda Dövlət Toxum Fondunun tabeliyində 5 toxum emalı zavodu fəaliyyət göstərir ki, onlardan biri də Ağcabədi rayonundadır. Bir hektar ərazidə salınan müəssisədə inzibati bina, taxıltəmizləmə bloku, taxıl üçün bunker və digər qurğular yaradılıb. Zavodun emal gücü saatda 5 tondur. Zavodda quraşdırılan qurğular vasitəsilə emal olunan toxum materialını 98,5 faiz təmizləmək mümkündür. Məhz bu toxumların əkin sərfiyyatı digər qurğularda təmizlənənlərdən 20-30 faiz azdır. Bu da əkinə sərf edilən toxumun həcminin azalmasına imkan verir, həm də fermerin məhsul istehsalında çəkdiyi xərcləri də əsaslı şəkildə azaldır. Zavodda həm iri şirkətlərin, həm də fermer və sahibkarların istehsal etdikləri toxumlar emal edilir. Buradakı silolarda dövlət ehtiyacı üçün tədarük olunmuş toxum ehtiyatı təhlükəsiz saxlanılır.

Ağcabədi rayonunun taxılçıları dövlətin dəstəyindən yararlanaraq ölkəmizin ərzaq təhlükəsizliyinə öz töhfələrini verir, intensiv becərmə texnologiyaların tətbiqi ilə hər hektarın məhsuldarlığının yüksəldilməsi hesabına taxıl istehsalını ilbəil artırır. Belə ki, 2014-cü illə müqayisədə taxıl istehsalı 29 min 187 ton, hər hektarın məhsuldarlığı isə 4,6 sentner çoxdur. Rayonda yeni taxılçılıq təsərrüfatlarının yaradılması, innovativ texnologiyaların tətbiqi növbəti illərdə taxıl istehsalının daha da artacağına əsas verir.

Yaxşı bilirik ki, hökumət tələbatı ödəmək və daxili bazarı tənzimləmək üçün neçə illərdir ki, taxıl idxalçılarına müxtəlif güzəştlər və daxili bazarda qiymətlərə müdaxilə edir, buğda və un məmulatlarına tətbiq edilən ƏDV-nin ləğvi nəticəsində qiymətlərin qalxmasının qarşısı alınır. Nəticədə isə beynəlxalq bazarlarda baş verən proseslərin daxili bazara təsiri kəskin surətdə azaldılır. Mütəxəssislərin dediyinə görə, Dövlət Taxıl Fondu tərəfindən yerli fermerlərin, xüsusilə də iri təsərrüfatların istehsal etdikləri buğdaya görə əlverişli tədarük qiymətlərinin tətbiq edilməsi və dövlət-özəl tərəfdaşlığı hesabına ərzaqlıq buğda istehsalının artırılması daim diqqətdə saxlanmalıdır. Eyni zamanda, həm də torpaqlardan səmərəli istifadə olunmalıdır.

Bu vacib məsələ haqqında iyulun 25-də Prezident İlham Əliyev Masallı, Lerik və Göygöl Rayon İcra hakimiyyətlərinə təyin edilən icra başçılarını qəbul edərkən bildirib ki, kənd təsərrüfatı üçün nəzərdə tutulan torpaqlarda ya evlər tikilmişdir, ya da ki, sadəcə olaraq, o sahələr hasarlanıb kiminsə mülkiyyətinə çevrilmişdir. Biz bu məsələni bu yaxınlarda ciddi araşdırmağa başladıq və gördük ki, burada çox böyük pozuntular var. Vəzifəli şəxslər yerli icra orqanlarının nümayəndələrinə göstəriş verirdilər ki, o torpağı mənə ver, bu torpağı mənə ver. Beləliklə də, torpaq fondu azalırdı və torpaqların qanunsuz zəbt edilməsi prosesi əfsuslar olsun ki, geniş vüsət almışdır.

Göründüyü kimi, torpaqlardan səmərəli istifadə edilməsini dövlət başçısı öz nəzarətinə götürüb və belə neqativ halların qarşısı qısa müddətdə ciddi tələbkarlıqla alınacaq, rayonlarda zəbt edilmiş torpaqlar əkin altına qaytarılacaq, haqsızlığa son qoyulacaqdır.

**Salman ALIOĞLU,**
**"Respublika".**